# Doqquz yaşlı laureat böyük uğurların sorağında



Musiqi sədaları altında dünyaya göz açan Zümrüd Əlizadə paytaxtdakı 160 nömrəli klassik gimnaziyanın III sinif şagirdidir. Hər gün eşitdiyi gözəl musiqilər ona sanki ana laylalarını əvəz edib. Bax, elə bu "layla"ların təsiri ilə də onda musiqiyə hədsiz məhəbbət yaranıb. Öz arzusu ilə o, Tofiq Quliyev adına 12 nömrəli uşaq musiqi məktəbinin fortepiano şöbəsinə daxil olub. Saatlarla deyil, günlərlə öz sevimli pianosundan ayrılmayan Zümrüd qısa vaxt ərzində dünya bəstəkarlarının əsərlərini ifa etməyə başlayıb. Hazırda musiqi müəllimi Yelena Xalilulinanın sinfində təhsil alır. Dərs əlaçısı olmaqla yanaşı məktəbin ictimai işlərində də fəal iştirak edir. Musiqinin sirlərinə tədricən bələd olan 9 yaşlı " laureat" deyir: "Musiqi qəlbimin səsidir, o, məni ecazkar bir aləmə aparır, onu dinlədikcə dinləmək istəyirəm. Hər dəfə piano arxasına keçib bir mahnını ifa edəndə mən qeyri-ixtiyari dərin xəyallara dalır, başqa-başqa dünyalara qovuşuram. Söz vermişəm ki, anam Nərgizə oxşamağa çalışacağam. O, pedaqoji fəaliyyəti ilə yanaşı Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrində pianist-konsertmeyster kimi də fəaliyyət göstərir. Uğurlarıma hamıdan çox sevinən də odur, məni həmişə birincilər sırasında görməyi arzulayır".

Zümrüd 2015-ci ildə Macarıstanın Balatonfred şəhərində keçirilən Renessans festivalında II nominasiya üzrə, 2016-cı ildə isə İspaniyanın Lloret de Mar şəhərində keçirilən müsabiqədə laureat adını qazanıb və başqa müsabiqələrə də dəvət alıb.

İstedadlı yeniyetmənin adı musiqini sevən, duyan yaşıdları arasında da fəxrlə çəkilir. Onun fortepianoda ifa etdiyi etüdlər, pyeslər, mahnılar ürək oxşayır, qəlbi riqqətə gətirir. Bu gün artıq dünya bəstəkarlarının əsərlərini məharətlə ifa edən Zümrüd dəryalar qədər dərin olan musiqinin sirlərinə dərindən yiyələnmək üçün səylə çalışır. Çalışır ki, beynəlxalq müsabiqə və festivallarda ölkəmizi layiqincə təmsil etsin, müəllimlərinin, anasının etimadını doğrultsun.

# Beynəlxalq müsabiqələr qalibi



Ayla Kəlbiyeva 2005-ci ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının I sinfinə daxil olub. Hazırda V "b" sinfində fortepiano ixtisası üzrə təhsil alır. Ayla eyni zamanda dərs əlaçısıdır. Uğurlarına heç də asanlıqla nail olmayıb, öz üzərində səylə çalışıb, musiqi dünyasının zəngin çalarlarına gərgin əməyi sayəsində bələd olub. Məhz çalışqanlığı, musiqiyə olan hədsiz məhəbbəti hələ şagird olan yeniyetmə qıza çoxlu sayda respublika və beynəlxalq müsabiqələrin laureatı adını qazandırıb. 2013-cü ildə Maltada keçirilən "Violin and frends" beynəlxalq müsabiqəsində III, 2014-cü ildə Fransada N.Rubinşteyn adına müsabiqədə II, 2015-ci ildə İtaliyada "Citta de Pızaro" beynəlxalq müsabiqədə II yerlərin qalibi olub. Ayla deyir ki, 2016-cı ilin yanvarı onun üçün uğurlu olub. Eşidəndə ki, ABŞ-da "Amerikan Proteğe" beynəlxalq müsabiqəsində iştirak edəcək, sevincinin hədd-hüdudu olmayıb və bu müsabiqəyə qatılaraq II yerə layiq görülüb.

İstedadlı yeniyetmə qazandığı nailiyyətlərlə kifayətlənmir, daha möhtəşəm auditoriyaların alqışlarını qazanmaq istəyir və bu arzularını gerçəkləşdirmək üçün səylə çalışır.

# Adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilən yeniyetmə



Züleyxa Abdullayeva 2002-ci ildə Bakı şəhərində anadan olub. O, hazırda Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının VIII "b" sinfində fortepiano ixtisası üzrə təhsil alır. 2011-ci ildə yeniyetmə istedad İtaliyanın Gio del Colle şəhərində keçirilən Pyetro Argento adına Beynəlxalq pianoçuların müsabiqəsinin laureatı adını qazanıb. Həmin ildə növbəti uğuruna da imza atıb. İsveçin Stokholm şəhərində keçirilən pianoçuların "Rondo" Beynəlxalq müsabiqəsində diplomant adına layiq görülüb. Sevdiyi sənət haqqında təəssüratlarını bizimlə bölüşən Züleyxa Abdullayeva bildirib ki, 2012-ci ildə Fransanın Paris şəhərində keçirilən müsabiqədə I yerə layiq görüldüyü anlar, tamaşaçıların alqışları heç vaxt yadından çıxan deyil. Həmin gün sevincdən gözləri yaşarıb, çünki bu, tək onun deyil, müəllimlərinin, təhsil aldığı məktəbin qələbəsi olub. Züleyxa sevinir ki, adı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının müvafiq sərəncamı ilə 2013-cü ildə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilib və xüsusi aylıq təqaüdə layiq görülüb. Söhbət zamanı Züleyxa bu sözləri söyləməyi də unutmadı: - Əzmkarlıqla çalışmalıyam ki, istedad və bacarığımdan səmərəli istifadə edim və mənə göstərilən etimadı doğruldum.

Uğurlar coğrafiyasını daim genişləndirən Züleyxa Abdullayeva 2014-cü ildə Amerikanın Nyu-York şəhərində məşhur Karneqi Holl konsert zalında keçirilən müsabiqədə laureat adına layiq görülüb. Hələ yeniyetmə ikən müxtəlif konsert salonlarında, respublika və beynəlxalq müsabiqələrdə hər çıxışı tamaşaçılarda xoş ovqat yaradan bu istedad sahibinin adının gələcəkdə musiqi korifeyləri sırasında çəkiləcəyinə şübhə yeri qalmır.

# İtaliyada keçirilən beynəlxalq müsabiqənin birincisi



Hələ kiçik yaşlarından musiqiyə böyük maraq göstərən Banu məktəbəqədər təhsil müəssisələrində keçirilən tədbirlərdə fəal iştirak edib. Valideynlərinin söylədiklərinə görə o, telekanallarda, radioda bir oynaq mahnı eşitcək özünəməxsus tərzdə hərəkətlər edib və rəqs etməyə başlayıb. Onun bu həvəsini nəzərə alan valideynləri Banunu "Səma" rəqs qrupuna yazdırıb. Burada istedadlı rəqs müəllimlərinin köməyi ilə tədricən Azərbaycan və dünya xalqlarının rəqslərini həvəslə öyrənib. Çox keçməyib ki, Banu müxtəlif telekanalların da uşaq verilişlərinin qonağı da olub, Rəsid Behbudov adına Mahnı Teatrında ifaları ilə tamaşaçılarda xoş ovqat yaradıb, fəxri fərman və diplomlarla mükafatlandırılıb. Hazırda isə Banu Tağıyeva Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının III sinif sagirdidir. O, əməkdar müəllim Nigar Nəcəfzadənin sinfində fortepiano dərsi alır. Boş vaxtlarında isə mütaliə etməyi xoşlayır, biliklərə yiyələnməyin, musiqi tarixi ilə bağlı məlumatlı olmağın vacibliyini dərk edir.

2015- ci ildə isə Banu ilk uğuruna imza atıb. O, İtaliyanın Pizaro səhərində keçirilən "Citta de Pizaro" adlı beynəlxalq müsabiqəyə qatılaraq I yerə layiq görülüb və laureat adını qazanıb. Həmçinin "İslam dünyası" Beynəlxalq musiqi festivalında da yeniyetmə qaliblərdən biri olub. Banu daha böyük nailiyyətlərə imza atmaq, beynəlxalq müsabiqə və festivallara qatılmaq üçün əzmlə çalışır.

# O, qrafika janrında işləməyi çox sevir



Hələ kiçik yaşlarından Murad Mustafazadənin rəssamlığa çox həvəsi olub. Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasında təhsil aldığı illərdə müəllimlərin diqqətini cəlb edib. Çəkdiyi bütün rəsmlərdə yaratdığı obrazlar onun əsl istedad sahibi olduğunu sübut edib. O, bu təhsil ocağında peşəkar müəllimlərdən rəssamlığın sirlərini öyrənməyə başlayıb. Qısa vaxt ərzində ölkəmizdə və xarici ölkələrdə nümayiş olunan rəsmləri ilə uğurlarını artırıb. İştirak etdiyi beynəlxalq və respublika rəsm müsabiqələrində qazandığı nailiyyətlərlə təhsil ocağına şərəf gətirib. Bakıda keçirilən Norveç Respublika Günündə "Norveç incəsənət gimnaziyası şagirdlərinin gözü ilə" adlı tədbirdə Murad diploma mükafatlandırılıb. Praqa şəhərində keçirilən tədbirdə daha bir diploma layiq görülüb. Çoxlu sayda diplomlar sahibi olan Murad Mustafazadənin fərdi sərgisi keçirilib. Sərgidə 50-yə yaxın rəsm əsəri nümayiş olunub. Milli və müasir üslubda işlənmiş kompozisiyalar, təbiət rəsmləri tamaşaçılarda xoş ovqat yaradıb. Rəsm işləri rəngkarlıq və qrafika janrlarında işlənib.Vətənpərvərlik mövzusundan bəhs edən rəsmlərində o, müxtəlif rəng çalarlarından məharətlə istifadə edib. Hər hansı bir mövzuda işləməsindən asılı olmayaraq o, ustalıqla vətənpərvərlik mövzusuna qismən də olsa toxunur. İşlədiyi zaman qrafika janrından daha çox istifadə edən gənc istedad deyir ki, bu üslubda ən çox ağ və qara rənglərdən istifadə edir. Amma dünyanı dərk etdikcə görürsən ki, dünyanın rəngləri ağ və qara rənglərdən ibarət deyil. Elə əsrarəngiz gözəlliklərlə rastlaşırsan ki, onu kətana köçürərkən daha gözəl rənglərdən istifadə etməli olursan.

# Arzularını zəhmətilə reallaşdıracağına əmindir



2012-ci ildə Vaqif Mustafazadə adına 2 nömrəli uşaq musiqi məktəbinə qəbul olunanda Aylanın sevincinin hədd-hüdudu yox idi. 2003-cü ildə Bakı şəhərində anadan olan Ayla qeyri-adi davranışı, istedadı və bacarığı ilə yaşıdlarından fərqlənib. Məhz buna görə də ilk gündən müəllimlərinin diqqətini cəlb edib. Çox keçmədi ki, o, fortepianonun şirmayı dillərinin sirlərinə yiyələnir. 2013-cü ildən o, musiqi təhsilini Tofiq Quliyev adına 12 nömrəli musiqi məktəbində davam etdirib. Artıq özünü müəyyən qədər təsdiq etməyə çalışan Ayla Həsənova 2014-cü ildə İstanbul şəhərində keçirilən IX Pera beynəlxalq piano festivalında müsabiqədə iştirak etmək şansı qazanıb və bu müsabiqədə III yeri tutub. Sonra uğurlar bir-birini əvəz etməyə başlayıb. 2015-ci ildə o, Estoniyanın Narva şəhərində keçirilən müsabiqədə də III yeri qazana bilib. 2016-cı il isə Aylanın həyatında qırmızı xətlə yadda qaldı. Yeniyetmə İspaniyanın Lloret De Mar şəhərində keçirilmiş beynəlxalq müsabiqədə ən yüksək nəticə əldə edərək I yerə layiq görülüb. Hazırda paytaxtdakı 60 nömrəli tam orta məktəbin VII sinif şagirdi olan bu istedad sahibinin adı yaşıdları, eləcə də pedaqoji kollektiv tərəfindən fəxrlə çəkilir. Aylanın musiqi sahəsində qazandığı uğurların təhsildə qazandığı nailiyyətlərə də təsiri az olmayıb. Daim oxumaq, mütaliə etmək, dərslərinə mükəmməl hazırlaşmaq istedadlı qızı musiqi elmini dərindən öyrənməyə həvəsləndirib. Onun parlaq gələcəyinə ümid çoxdur. Bu parlaqlığı dilli-dilavər qızın özünün söylədiyinə görə öz çalışqanlığı, əzmkarlığı, prinsipiallığı ilə qazanacaq.

# Arzusu Rəssamlıq Akademiyasının tələbəsi olmaqdır



Azərbaycan xalqının mədəniyyəti və incəsənəti çoxəsrlik tarixə malikdir. Onu qoruyub saxlamaq hər bir gəncin mənəvi borcudur. İncəsənət milli sərvətimizdir. Azərbaycan rəssamlıq sənəti tarixində öz imzası ilə tanınan istedadlı rəssamlarımız yetərincədir. Onların əsərləri nəinki ölkəmizdə, xaricdə də müxtəlif sərgilərdə nümayiş etdirilir. Belə istedad sahiblərindən biri də Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının təsviri və tətbiqi sənət şöbəsinin XI sinif şagirdi Ləman Aslanovadır. Təhsil aldığı məktəbdə onun dəfələrlə fərdi rəsm sərgisi keçirilib. 70-ə yaxın rəsm əsərləri nümayiş olunub və diplomlarla mükafatlandırılıb. Gənc istedadın bir neçə rəsm əsəri Fransa, Çexiya, Rusiya, Ukrayna, Yaponiya və digər ölkələrə göndərilib. Orada təşkil olunan uşaqların rəsm əsərlərindən ibarət sərgidə Ləmanın da çəkdiyi rəsmlər yüksək dəyərləndirilib. "Bayrağımız qürur mənbəyimizdir," "Mən musiqi çəkirəm", "Norveç incəsənət gimnaziyası şagirdlərinin gözü ilə", "İstedadlı uşaqlar festivalı-2013", "Dekorativ tətbiqi sənət", "Azərbaycan milli geyimləri rəssamların gözü ilə" adlı rəsm müsabiqələrində qalib olub və diplomlarla mükafatlandırılıb. Qeyri-adi istedad sahibi olan Ləman Aslanova puantilizm üslubunda işləyir. O, ümumiyyətlə, düşündürücü rəsmlər çəkməyi xoşlayır. "Uşaqlar və müharibə", "Xocalı soyqırımı", "Xocalı harayı" kimi vətənpərvərlik mövzusunda çəkdiyi rəsmlər onun böyük istedad sahibi olduğuna bariz nümunədir.

Ləman Aslanova eyni zamanda dərs əlaçısıdır. O, məktəbin ictimai işlərində də fəal iştirak edir. Arzusu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi olmaqdır.

**Səhifəni hazırladı:**
**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*